## ДЖЕЙМС КАРТЕР И ВНЕШНЯЯ ПОЛИТИКА США

***Бактиярлы Гусейн***

***Резюме***

В статье рассматриваются 39-й президент США Картер и его вопросы внешней политики. Было отмечено, что Картер добился успеха еще до того, как был избран президентом. Президентские выборы 1976 года были более успешными. Он оставался приверженным традиционной политике США после выборов. Сегодня его имя помнят как правозащитника.

## JAMES CARTER AND FOREIGN POLICY OF USA

***Bakhtiyarlı Huseyn***

***Summary***

The article examines the 39-th President of the United States Carter and his foreign policy issues. It was noted that Carter was successful even before he was elected president. The 1976 presidential election was more successful. He remained committed to traditional US policy after the election. Today, his name is remembered as a human rights defender.

***Rəyçi:dosent Elza Paşayeva***
***Ümumi tarix kafedrasının 10 sentyabr 2021-ci il tarixli iclasın 01 saylı protokolu***
***Daxil olma tarixi 24 sentyabr 2021-ci il***

**UOT:94(479.24).**

## AZƏRBAYCAN – TÜRKIYƏ MÜNASIBƏTLƏRINDƏ YENI MƏRHƏLƏ (2003-2008-ci illər)

***t.ü.f.d. Hüseynova Rimunə Zakir qızı***
***Gəncə Dövlət Universitetinin***
***rumina.huseyn@mail.ru***

**Xülasə**:*İlham Əliyevin prezident seçilib, fəaliyyətə başlaması ilə beynəlxalq münasibətlər sferasında nəzərə çarpan uğurlar əldə edildi. Cənab İlham Əliyev regionda müəyyən maraqları olan böyük dövlətlərlə əlaqələri daha da inkişaf etdirmək xəttinə üstünlük verdiyi elə ilk günlərdən hiss olunurdu. Ayrı-ayrı ölkələrin, o cümlədən Türkiyənin Azərbaycanın yeni prezidentinə isti münasibəti də məhz onun praqmatik xarici siyasət yürütməsinə inamdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi balanslaşdırılmış və tolerantlıq prisipinə əsaslanan xarici siyasət strategiyası dünyanın ən qüdrətli dövlətlərini respublikamızın starteji tərəfdaşına çevirmişdir. Cənab İlham Əliyev bu siyasəti davam etdirəcəyini bildirməklə həmin tərəfdaşlığa Azərbaycanın sadiq qalacağını göstərdi. Nəticə özünü bir o qədərdə gözlətmədi və ABŞ, Türkiyə, Rusiya, Fransa, İran kimi nəhəng dövlətlər rəsmi Bakı ilə əlaqələrin bundan sonra da inkişaf etdirəcəklərini bildirdilər.*

**Açar sözlər:** Azərbaycan, Türkiyə, saziş, əlaqələ, görüş müqavilə.
**Ключевые слова:**Азербайджан, Турция, контракт, отношения, встреча, договор.
**Key words:** Azerbaijan, Turkey, agreement,contact, meeting, contract

Türkiyə ilə Azərbaycan arasında heç vaxt problem yaranmayıb və hər iki dövlət münasibətlərin strateji tərəfdaşlıq müstəvisində oluduğuna qəti şəkildə

əmindir. Türkiyənin xarici işlər naziri və baş nazirinin müavini Abdullah Gülün ölkəmizə səfəri zamanı prezident İlham Əliyevlə keçirdiyi görüş qardaş ölkənin Azərbaycana hər zaman dəstək göstərməyə hazır olduğunu bir daha təsdiqlədi. Bu görüş zamanı əlaqələrin perspektivləri, trans regionla layihələrin həyata keçirilməsində qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsi məsələləri müzakirə mövzusu oldu [1]

Türkiyə Respublikasının xarici işlər naziri baş nazirin müavini Abdullah Gül 2004-cü il yanvarın 9-da Bakıya gəlmişdir. [2]

Binə hava limanında Türkiyənin xarici siyasət idarəsinin başçısını Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov, Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Çeviköz və digər rəsmi şəxslər qarşılamışdılar.

Türkiyə XİN-in başçısı dedi ki «Mən Azərbaycanın və bütün türk dünyasının böyük dövlət xadimi əziz Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqı ilə birlikdə kədərlənirəm və bütün Azərbaycan xalqına başsağlığı verirəm». O ilk növbədə Fəxri Xiyabana gedərək, böyük öndərin məzarını ziyarət edəcəyini bildirmişdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə Türkiyə rəhbərliyinin siyasi xəttinin dəyişməz qaldığını bildirən nazir dedi: «Bu məsələ təkcə Azərbaycan üçün deyil həm də Türkiyə üçün əhəmiyyətlidir. İşğal edilməz ərazilər problemi bizim hamımız üçün ümumidir. Biz onun həlli üçün mümkün bütün işləri görəcəyik. Qafqaz sülh, sabitlik və inkişaf mərkəzinə çevrilməlidir».

Türkiyə Respublikasının xarici işlər naziri Abdullah Gül yanvarın 9-da Şəhidlər Xiyabanını ziyarət etmişdir [3].

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olunmuş qəhrəmanların məzarları üstünə gül-çiçək dəstəsi düzən Abdullah Gül «Əbədi məşəl» xatirə kompleksinin önünə əklil qoymuşdur. Türkiyənin xarici işlər naziri xatirə kitabına ürək sözlərini yazmış, Şəhidlər Xiyabanında şəhərin mənzərəsi ilə tanış olmuşdur[4] .

Abdullah Gül Prezident Heydər Əliyevin məzarı üzərinə öz adından əklil qoymuş, mərhumun ruhuna dua oxunmuşdur.

Yanvarın 9-da Nazirlər kabinetinin binasında Azərbaycanın baş naziri Artur Rəsizadə Türkiyənin xarici işlər naziri və baş nazirin müavini Abdullah Gül və onu müşayət edən nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan hökumətinin başçısı belə yüksək səviyyədə aparılan danışıqların qardaş Türkiyə ilə Azərbaycan arasında əlaqələrin hərtərfli inkişafına kömək edəcəyini bildirdi, dövlətimizin strateji tərəfdaş olduğunu, müstəqillikdən sonra ölkəmizdə çox böyük işlər görüldüyünü diqqətə çatdırdı.

Azərbaycan Xarici işlər naziri Vilayət Quliyev də yanvarın 9-da Abdullah Güllə görüşmüşdür.

Abdullah Gül azərbaycanlı həmkarına onu Bakıya səfərə dəvət etdiyinə və səmimi qəbuluna görə minnətdarlıq etmişdir.

Azərbaycan və Türkiyənin xarici işlər nazirləri yanvarın 9-da Beynəlxalq Mətbuat Mərkəzində mətbuat konfransı keçirmişlər.

XİN başçıları bildirdilər ki, danışıqlar zamanı digər məsələlərlə yanaşı, NATO-nun bu yay İstanbulda keçiriləcək növbəti Zirvə toplantısı ilə bağlı məsələlər barədə də fikir mübadiləsi aparılmışdır[5].

2004-cü il yanvar ayının əvvəllərində Türkiyənin Qaziantep valiliyindən Azərbaycanın Ankaradakı səfirliyinə daxil olan məktubda bildirilir ki, bu

vilayətin Şanıbəy qəsəbəsində inşası ötən ilin sonlarında başa çatrılan və 700 nəfərdən çox şagirdin təhsil aldığı orta məktəbə valiliyin qərarı ilə Azərbaycan xalqının lideri Heydər Əliyevin adı verilmiş və xalqımızın Milli liderinin xatirəsini əbədiləşdirmək məqsədilə məktəbin qarşısında Heydər Əliyevin büstünün qoyulması nəzərdə tutulmuşdur . [6]

Ölkəmizin Türkiyədəki səfəri Məmməd Əliyev cavab məktubunda bu nəcib addım üçün Qaziantep valisinə və bölgənin digər rəhbərlərinə təşəkkürünü bildirmiş və Azərbaycan dövlətinin əhəmiyyətli dərəcədə bu məktəbi daim diqqət mərkəzində saxlayacağını onların diqqətinə çatdırmışdır[7].

Bu gün Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında inkişaf etmiş elm və təhsil əlaqələri də mövcuddur. İki ölkənin bu sahədə əməkdaşlığı həm məzmununa, həm də miqyasına görə digər dövlətlərlə müqayisə olunmazdır. Təhsil sahəsində çoxtərəfli əməkdaşlığı həyata keçirmək üçün lazımi hüquqi baza yaradılmışdır. İki ölkə arasında təhsil haqqıda müqavilə, təhsil və elm sahəsində əməkdaşlıq protokolu, Təhsil Nazirliyi ilə Türkiyənin Ali Təhsil Şurası rəhbərliyi arasında razılıq protokolu imzalanmışdır. Hazırda Türkiyədə iki mindən artıq Azərbaycan vətəndaşı 40-dan çox ixtisas üzrə ali təhsilin müxtəlif pillərində oxuyurlar. Mindən çox azərbaycanlı professor-müəllimlərimiz, elmi işçilərimiz dost ölkənin nüfuzlu ali təhsil və elm ocaqlarında çalışırlar[8].

Türkiyənin elmə və təhsil işçilərinin Azərbaycandakı fəaliyyəti təqdirəlayiq hesab olunmalıdır.

Bu gün artıq Azərbaycan və Türkiyə müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, Avropa Birliyi ATƏT və Avropa Şurasında bir-birinə lazimi dəstəyi verir. Rəsmi Ankara bütün beynəlxalq toplantılarda haqlı mövqeyinizi müdafiə edərək, Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərdsiz azad etməsi tələbini sürür[9] .

Prezident İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfəri isə iki qardaş ölkə arasındakı müttəfiqlik münasibətlərin inkişafına güclü təkan verdi. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Türkiyə Respublikasının prezidenti Əhmət Necdət Sezərin dəvəti ilə aprelin 13-15-də dost və qardaş ölkədə səfərdə olmuşdur[10] .

Azərbaycan və Türkiyənin bayraqları ilə bəzədilmiş Esənboğa hava limanında prezident İlham Əliyevi Türkiyə baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gül, Kənd təsərüffatı naziri Sami Güclü, Ankara valisi Yəhya Gür, Azərbaycanın Türkiyədəki səfiri Məmməd Əliyev, Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ümal Çevikgöz, Respublikamızın İstanbuldakı baş konsulu İbrahim Yaqubov və digər rəsmi şəxsiyyətlər səmimiyyətlə qarşıladılar[11].

Aprelin 13-də Azərbaycan Prezidenti İlham Əliyev Esenboğa hava limanından birbaşa Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürk dəfn olunduğu məqbərəyə – Anitqəbirə gəldi.

Prezident İlham Əliyev böyük Atatürk məzarını ehtiramla ziyarət etdi. Dövlətimizin başçısının adından məzarın önünə əklil qoyuldu. Türk dünyasının böyük oğlunun xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycan prezidenti məqbərənin xatirə kitabına ürək sözlərini yazdı. Respublikamızın rəhbəri burada yaradılmış Atatürk muzeyi ilə tanış oldu.

Aprelin 13-də Türkiyə Respublikası prezidentinin iqamətqahında – Çankaya köşkündə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin qarşılanma mərasimi olmuşdur.

Türkiyə və Azərbaycan bayraqları ilə bəzədilmiş iqamətqahın qarşısında Respublikamızın rəhbərinin səfərinə fəxri qarovul dəstəsi düzülmüşdür.

Dövlət başçıları, mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etdiər.

Rəsmi qarşılanma mərasimindən sonra Çankaya köşkündə Azərbaycan Respublikasının prezidenti İlam Əliyev ilə Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezer arasında təkbətək görüş keçirildi.

Səmimi dostluq və mehribanlıq şəraitində keçən görüşdə dövlət başçıları ölkələrimizin arasında ikitərəfli münasibətlərin bütün sahələrinin inkişaf prespektivlərini ətraflı müzakirə etdilər, regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi apardılar [12]. Dövlət başçılarının təkbətək görüşləri başa çatdıqdan sonra Çankaya köşkündə Azərbaycan və Türkiyə prezidentlərinin rəhbərliyi ilə nümayəndə heyətlərinin görüşü oldu. Görüşdə Azərbaycan ilə Türkiyənin müştərək tarix, mədəniyyət və dil birliyinə, dostluq, bərabərlik və qarşılıqlı faydaya əsaslanan hazırkı yüksək səviyyəli əlaqələrin və əməkdaşlığının daha da güclənməsi yüksək qiymətləndirildi, ölkələrimiz arasında ticarət dövriyyəsinin həmçinin 1 milyon dollara çatdırılması bir vəzifə kimi qarşıya qoyuldu[13] .

Görüşdə Bakı-Tibilisi-Ceyan əsas ixrac boru kəmərinin və Bakı-Ərzurum qaz kəmərinin tikintisindən ayrıca söhət getdi. Xəzərin enerji ehtiyatlarının bu kəmərlər vasitəsilə nəqlini region ölkələrin iqtisadi inkişafına və sabitliyinə böyük töhfə verəcəyi ilə yanaşı, Avropanın enerji daşıyıcıları ilə təminatı da əhəmiyyətli rol oynayacağı vurğulandı.

Tərəflər bir daha bildirdilər ki, beynəlxalq təşkilatlar, böyük dövlətlər Cənubi Qafqazda sülh, sabitlik və inkişafa əsas mane olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqiəsinin beynəlxalq hüquq normalarına əməl edilməklə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması əsasında sülh yolu ilə tezliklə aradan qaldırılması üçün səylərini gücləndirməlidirlər[14] . Belə bir əminlik ifadə edildi ki, prezident İlham Əliyev Türkiyəyə rəsmi səfəri uğurlu olacaq və ölkəmizin arasında münasibətlərin yeni mərhələyə qalxmasına töhfə verəcəkir.

Geniş tərkibdə görüşdən sonra Çankaya köşkündə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə prezidenti Əhməd Necət Sezərin iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanma mərasimi oldu[15].

Keçirilən görüşlərdə iqtisadi əlaqələin prespektivi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisində işlərin gedişi, Bakı-Ərzurum qaz kəmərinin nəzərdə tutulmuş vaxtda reallaşdırılması, eləcə də hər iki dost ölkəni maraqlandıran regional və beynəlxalq miqyaslı məsələlər geniş müzakirə mövzusu oldu. Cənubi Qafqaz regionunda sülhi təhlükəsizlik və əməkdaşlıq üçün başlıca maneə olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dinc yolla beynəlxalq hüquq normalarının başlıca prinsipləri gözlənilmədən, yəni ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası şərti ilə aradan qaldırılması barədə də geniş fikir mübadiləsi aparıldı. Prezident Əhməd Necdət Sezer qətiyyətlə bəyan etdi ki, Türkiyə bundan sonra da münaqişənin həllində Azərbaycana zəruri dəstək verəcək: «Türkiyə Cənubi Qafqaz bölgəsində cərəyan edən hadisələri yaxından izləyir və bölgədə sülh, sabitlik, tərəqqi olmasına böyük əhəmiyyət verir. Bu bölgənin problemləri

sülhün, əməkdaşlığın və sabitliyin bərqərar olmasına maneədir. Türkiyə Dağlıq Qarabağ başda olmaqla, Cənubi Qafqazdakı bütün problemlərin ölkələrin ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri çərçivəsində ən qısa müddətdə sülh yolu ilə həllini istəyir. Prezidenti İlham Əliyevlə aparacağımız danışıqlarda Tükiyə-Azərbaycan əlaqələrinin bütün aspektləri müzakirə ediləcək və münasibətlərimizin bütün sahələrdə daha da inkişaf etdirilməsi imkanları araşdırılacaqdır. Eyni zamanda, danışıqlarda regional münasibətlərlə bağlı fikir mübadiləsi aparılacaqdır» [16].

Türkiyəni öz vətəni hesab etdiyini bildirən Azərbaycan Prezidenti cənab İlham Əliyev isə razılıqla vurğuladı ki, iki qardaş, dost ölkələr arasına münasibətlər strateji mahiyyət daşıyır və günü-gündən inkişaf edir. Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə olan Türkiyə sonrakı illərdə də bizə bütün məsələlərdə yardımçı olub, əsl müttəfiq olduğunu təsdiqləyir: «Son 10 ildə ölkəmizin arasında olan münasibətlər ikişaf etmiş, güclənmişdir. Bütün sahələrdə, siyasi iqtisadi mədəni sahədə ölkələrimiz uğurlu əməkdaşlıq edir. Türkiyə daim Azərbaycana arxa dəstək olmuşdur. Azərbaycanın ən çətin dövründə biz bu dəstəyi bu köməyi daim hiss etmişik. Azərbaycan üçün bütün bölgə ən təhlükəli məsələ də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi istiqamətində də biz daim Türkiyənin dəstəyini hiss etmişik və bu gündə də hiss edirik. Ümidvarıq ki, bundan aparılacaq danışıqlarda beynəlxalq birlik, ictimayət münaqişələri beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətində öz səylərini göstərəcəkdir» [17].

Bir sözlə, Azərbaycan prezidenti cənab İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfəri göstərdi ki, iki ölkənn starteji müttəfiqliyi XXI əsr də Cənubi Qafqazın siyasi düzənini müəyyənləşdirən ciddi güc mərkəzinin yaranması ilə nəticələnəcək. Bundan əlavə, 12 ilin sınağından çıxmış Azərbaycan-Türkiyə mütəffiqliyi normal səviyyədə, ölkələrimizin gerçək potensialı hazırki münasbətlərin daha da inkişaf etdrilməsinə imkan yaradır.

Sonrakı qarşılıqlı səfərlərdə bu baxımdan xüsusi əhəmiyət daşımışdır. Ən çoxda Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun Türkiyə baş naziri Adullah Gülün dəvəti ilə 2005-ci ilin fevralın 10-da Ankaraya rəsmi səfəri[18] olmuşdur.

Türkiyə Resrublikasının prezidenti Əhməd Necdət Sezər həmin gün Çankaya köşkündə Elmar Məmmədyarovu qəbul etmişdir.

Görüşdə hər iki ölkəni maraqlandıran bir sıra siyasi, iqtisadi və mədəni məsələlər, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqşələrinin həlli ilə bağlı aparılan danışıqlar prosesi, Bakı-Tblisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, Bakı-Tbilisi-Qars dəmir yoluun xəttinin inşası barədə söhbət getmiş, regional və beynəlxalq məsələlərə toxunmuşdur.

Fevralın 10-da Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun və Türkiyənin xarici işlər naziri Abdullah Gülün təkbətək və nümayəndə heyətinin iştirakı ilə görüşlər keçirilmişdir. Görüşlərdən sonra nazirlər mətubat nümayəndələri ilə bəyanatla çıxış etmişlər. Abdullah Gül xüsusilə qeyd etmişdir ki, Türkiyənin mövqeyi açıq-aşkardır, rəsmi Ankara hər zaman beynəlxalq çərçivədə dəstəkləyəcəkir[19].

Türkiyə respublikasının baş naziri Rəcəb Tayyib Ərdoğan 2005-ci il iyunun 29-da rəsmi səfərə gəlmişdir[20]. Səfər prosesində keçirilən görüşlər, aparılan danışıqlar Azərbaycan-Türkiyə münasibətlərinin nə qədər yaxın olduğunu və daim inkişaf etdiyini bir daha göstərmişdir.

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan limanında Şərq-Qərb enerji dəhlizinin mühüm qolunu təşkil edən və ulu öndər Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi[21]. Bu hadisə ümummilli liderin uzaqgörən və düşünülmüş siyasətinin, eləcə də uğurlu neft strategiyasının nəticəsi və vaxtilə bəzi mütəxəssislərin inanmadığı üç dəniz əfsanəsinin reallığa çevrildiyi gün kimi tarixə düşdü.

2007-ci il noyabrın 6 – 8-də Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün Azərbaycana səfəri çərçivəsində iki dövlət arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə və ümumilikdə 5 mühüm sənədin imzalanması həm siyasi, həm iqtisadi, həm də başqa sahələrdə əməkdaşlığın daha da yüksək səviyyəyə qalxmasına zəmin yaratdı[22].

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr – Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz tövhəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Bu mənada 2008-ci il iyulun 24-də Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri zamanı Qars şəhərində Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulması mərasimindəki nitqində dövlət başçısı Azərbaycanın beynəlxalq enerji və nəqliyyat dəhlizi ölkəsi olaraq yüksək potensialını göstərməklə yanaşı, bu dəmir yolunun ümumən regionda əməkdaşlığın genişlənməsi üçün çox önəmli layihə olduğunu bildirdi[23].

Hazırda regionun ən böyük və mühüm layihələri hesab edilən hər üç layihənin Bakıdan başlanması təkcə Azərbaycanın neft və qaz ehtiyatlarına malik olması deyil, eləcə də ölkəmizin regionda ən böyük iqtisadi potensiala, gücə və həmin layihələrin reallaşmasını diktə etmək imkanına sahib olması deməkdir.

### *Ədəbiyyat*

1.«Azərbaycan» qəzeti, 10 fevral 2004.
2.«Azərbaycan» qəzeti, 10 yanvar 2004.
3.Yena orada.
4.Yena orada.
5.Yena orada.
6.Yenə orada.
7.Yena orada.
8.«Azərbaycan» qəzeti, 14 fevral 2004.
9.«Azərbaycan» qəzeti, 18 aprel 2004.
10.«Azərbaycan» qəzeti, 17 aprel 2004.
11.«Azərbaycan» qəzeti, 14 aprel 2004.
12.Yena orada.
13.«Azərbaycan» qəzeti, 17 aprel 2004.
14.Yena orada.
15.Yena orada.
16.«Azərbaycan» qəzeti, 18 aprel 2004.
17.Yenə orada.
18.«Xalq qəzeti» 11 fevral 2005.
19.Yenə orada.
20.«Xalq qəzeti» 30 iyun 2005.

21.Əhmədov E. Müasir geosiyasi şəraitdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı daha da genişlənir // «Xalq qəzeti» 30 sentyabr 2012.
22.Yenə orada.
23.Əhmədov E. Müasir geosiyasi şəraitdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı daha da genişlənir // «Xalq qəzeti» 30 sentyabr 2012.

**NEW STAGE IN AZERBAIJAN-TURKEY RELATIONS**
**( 2003-2008 years)**

***Huseynova Rimuna Zakir***

***Summary***

At an official reception at the Gulustan Palace on the occasion of his election as President on October 31, 2003, Ilham Aliyev expressed his views on Turkish-Azerbaijani relations, "Wherever is Turkey , Azerbaijan is there, wherever is Azerbaijan , Turkey is there" In 2003, agreements were signed on very important strategic projects that connect Azerbaijan and Turkey more closely. Both countries faced the implementation of these projects and were successful.

**АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ**
**(новый этап 2003-2008)**

***Гусейнова Римуна Закир кызы***

***Резюме***

На торжественной церемонии во Дворце Гюлистан по случаю президентских выборов 31 октября 2003 года, Ильхам Алиев рассказал о турецко-азербайджанских отношениях: «Где Турция, там и Азербайджан там, где Азербайджан, там и Турция », - сказал он и показал будущее в направление отношений между двумя странами. В 2003 году Азербайджан и Турция стали ближе друг к другу и были подписаны ряд соглашений по очень важным стратегическим проектам. Перед обеими странами стояла реализация этих проектов , и эти проекты были успешно реализованы.

***Rəyçi: dos.Bağırzadə Cavid***
***Azərbaycan tarixi kafedrasının 26 oktyabr 2021-ciil tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 27 oktyabr 2021-ci il***

**UOT-94**

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

***İsmayılov İsmayıl Akif oğlu***
***Gəncə Dövlət Universiteti***
***ismayilov81@mail.ru***

**Xülasə:** *Tarixin inkişaf prosesi göstərir ki, SSRİ və Türkiyənin iki tərəfli münasibətlərinin tədqiq edilməsi bu gündə öz aktuallığını saxlamaqdadır. Belə ki, beynəlxalq münasibətlər sistemində SSRİ və Türkiyə öz yerlərini tutmaq üçün, ikitərəfli əlaqələrdən geniş şəkildə istifadə etmişlər. Sovet-Türk münasibətlərini 30-cu illərin ortalarına qədər bütövlükdə dostluq və qardaşlıq münasibətləri kimi səciyyələndirmək olar. SSRİ və Türkiyənin İkinci Dünya Müharibəsi illərindəki münasibətləri isə çox təzadlıdır. Buna görədə bu dövrün tədqiq edilməsi qarşımıza məqsəd qoyulmuşdur.*

*İkinci Dünya Müharibəsi illərindəki SSRİ – Türkiyə münasibətlərinə ümumilkdə nəzər salsaq, görərik ki, SSRİ 1941 -ci ildə müharibəyə qatılana qədər Türkiyənin bitərəf qalmasını istəyirdi. Ona görə də, münasibətlər müsbət məcərada davam etmişdi. Bu vəziyyət, Sovetlərin Alman ordularını məğlub etməyə başladığı tarixə qədər davam etdi. Üfüqdə zəfər işığı göründükdən sonra SSRİ Türkiyəni neytral saxlamaq üçün yeni siyasət izləməyə başladı.*